

# MÖCÜZƏLİ ŞIX SANATORİYASI

*Ağamahmud Səmədov,*
*"Yer və insan" jurnalının redaktoru*

**14 il əvvəl sağ ayağımdan aldığım travma mənə çox əziyyət verirdi. Xeyli müddət müalicə kursu keçsəm də müsbət nəticə hiss olunmadı. Nəhayət mənə bildirdilər ki, ayğımın aşıq sümüyü nahiyəsində qaralma var, mütləq əməliyyat aparılmalıdır, yoxsa ayağımı itirə bilərəm. İki il ərzində Mərkəzi Klinik Xəstəxanada 3 dəfə əməliyyat olundum, hətta oynağa qığırdaq köçürüldü. Vəziyyətim qismən yüngülləşsə də ayağımın topuq nahiyəsində arada şiş yaranır və mənə xeyli əziyyət verirdi.**

Sonra yaxın insanların məsləhəti ilə Türkiyədə və İranda oldum. İlk vaxtlar müəyyən dərəcədə yüngüllük hiss etsəm də ağrılar hələ də qalırdı. Nəhayət müdrik bir insan mənə təkidlə Abşeron yarımadasında, Bakının yaxınlığında yerləşən Şıx sanatoriyasına getməyi məsləhət gördü və mən 2012-ci ilin payızında həmkarlar təşkilatının putyovkası ilə yarıkönül adı çəkilən sağlamlıq müəssisəsinə yollandım və orada müalicə kursu keçməyə başladım. Sanatoriyada digər müalicə vasitələri ilə birlikdə hidrogen sulfidli su vannaları qəbul edəndən sonra xəstə ayağımda, eləcə də digər oynaqlarda nəzərəçarpacaq müsbət dəyişiklik baş verdiyini duydum. Sanki birdən möcüzə baş verdi... Ayağımın sağalması tədricən davam etdi və xeyli müddət "yoldaşlıq" etdiyim çəliklə, axsamaqla "vidalaşmalı" oldum. Növbəti il də fürsət düşən kimi Şıx sanatoriyasına getdim. Onu da deyim ki, həmin vaxtlar sanatoriyada şərait elə də qənaətbəxş deyildi. Sonralar sanatoriyada təmir işləri aparılması səbəbindən mənə bol sevinc bəxş etmiş bu müailcə müəssisəsinə bir müddət gələ bilmədim. Şıx sanatoriyasında təmir-bərpa işləri başa çatdırıldıqdan sonra 2017-ci ildə yenidən bu müalicə ocağına üz tutdum. Bu zaman gördüklərim güman etdiklərimi qat-qat üstələdi. O vaxtdan imkan düşən kimi burada müalicə kursu keçir və böyük məmnunluq hissi ilə evə, işə qayıdıram...

Ümumiyyətlə, Abşeron yarımadasında dəniz sahili boyu çoxlu sayda müalicəvi mineral su yataqları vardır. Tərkibində yod, brom və böyük müalicəvi təsir gücünə malik digər kimyəvi maddələr olan mineral su yataqları hazırda kifayət qədər istifadə edilməsə də yaxın gələcəkdə onlardan palçıq vulkanlarının məhsulu olan müalicə palçıqları ilə bərabər balneologiya və kurortologiya sahəsində geniş istifadə edilməsi perspektivli və zəruri hesab olunur.

Yuxarıda qeyd olunan mineral suların tərkibində insan orqanizminə müsbət təsir göstərən müxtəlif qazlar, spesifik kimyəvi komponentlər və formokoloji inqrediyentlər və faydalı bioloji aktiv elementlər olduğundan bir çox xəstəliklərin müalicəsi üçün istifadə edilir.

***Mineral suların tərkibində xəstəliklərin müalicəsi üçün vacib olan, şirin sularla müqayisədə, yüksək miqdarda duzlar, makro və mikro komponentlərin, müxtəlif qazların olması zəruridir.***

Abşeron yarımadasındakı mineral su yataqlarında mövcud olan sulardan Şıx yatağındakı suyun ən böyük üstünlüyü həm də onun termal mənşəli olmasındadır. Burada haşiyə çıxaraq qeyd edim ki, ABŞ, Yaponiya, Yeni Zelandiya, İtaliya, İspaniya, Rusiya Federasiyası (Kamçatka, Şərqi Sibir, Şimali Qafqaz), Ukrayna, Gürcüstan və s. ölkələrdə termal sulardan geniş istifadə edilir və onların təcrübəsindən faydalanmaq yaxşı olardı.

***Şıx sanatoriyasında istifadə olunan suyun temperaturu mənbədə 680-dir. Sular əsasən hidrogen sulfid tərkiblidir. Geoloji cəhətcə onlar Orta Abşeron yaşlı çatlı əhəng daşları, qum və gillərin növbələşməsindən ibarət süxur kompleksinə təsadüf edir. Şıx yatağının suları təzyiqli sular kateqoriyasına aiddir.***

Sular yüksək rekreasiya potensiallı, sanatoriya kompleksində istifadə edilən H2S-li termal suların vanna qəbulu hərəkət dayaq orqanları, periferik sinir sistemi, ginekoloji, ürək-damar və dəri xəstəliklərinin müalicəsi üçün istifadədə çox yararlıdır.

Mənbələrə görə sanatoriyanın yaxınlığında yerləşən Bibiheybət məscidinin içərisində yeddinci imam Musa əl-Kazımın qızı və səkkizinci imam Əli ibn-Musa ər-Rizanın bacısı Hükeymə (Hökumə) xanımın məqbərəsi yerləşir.

Rəvayətə görə təbiblər müqəddəs imamların yaxın ailə üzvü olan Hükeymə xanımın xəstəliyinin şəfası üçün indiki Bibiheybət kəndinin içərisində olan müalicəvi bulaq suyunu məsləhət görmüşlər. O, bu məqsədlə Ərəbistandan buraya köçərək (təxminən IX əsr) şəfa tapmış, burada yaşamışdır. Xanımın dəfn edildiyi türbə üzərində XIII əsrdə hündür minarəsi olan məscid tikilmişdir.

Bibiheybət adı müqəddəs ailəyə mənsub olan xanımın (Bibi) və onun sadiq və sevimli Heybət adlı nökərinin adından qeyd edilir.

***Görkəmli tarixçi alim akademik Ziya Bünyadovun Azərbaycanın orta əsrlərin tarixinə həsr olunmuş əsərində qeyd olunmuş bu rəvayət onu göstərir ki, burada hidrogen sulfidli mineral su bulaqları əvvəllər də olmuşdur. Sonrakı dövrlərdə torpaq sürüşmələri və abraziya prosesləri nəticəsində bu bulaqlar itirilmiş, 1943-cü ildə bu ərazidə qazılan 1384 və 1334 nömrəli neft kəşfiyyat quyuları bu sulu kompleksləri kəsmişdir.***

Dayaq-hərəkət aparatının xəstəliklərinin müalicəsinə müsbət təsir göstərən Şıx dənizkənarı balneoloji sanatoriyası Bakı şəhərindən cəmi 10 km aralıda, Bibi-Heybət qəsəbəsində yerləşir. Sözsüz ki, hər birimiz Varnanın qızıl qumları, Soçi çimərlikləri, Krım havası və Anapa günəşi barədə uzun-uzadı hekayələr eşitmişik. Lakin bu kurortlar arasında təkcə Bibi-Heybətdə yerləşən Şıx sanatoriyası sadaladığımız təbii xassələrin hamısını özündə cəmləşdirir. Qızılı kvars qumları, günəşli günlərin sayının çox böyük miqdarda olması, əsrarəngiz Xəzər dənizi və ultrabənövşəyi şüalarla zəngin olan günəş adıçəkilən sanatoriyanı fərqləndirən xüsusiyyətlərdəndir. Onu da qeyd edək ki, Şıx bakılıların ən sevimli istirahət guşəsidir. Abşerona xas olan iqlim tipinin və təbii mənbələrin müalicəvi özəllikləri barədə biliklər qədim zamanlardan bəri məlumdur.

Müalicə və iqlim amillərinin kombinasiyası və eləcə də həkim göstərişinə əsasən tərkibində az miqdarda yod və brom olan termal hidrosulfid su vannalarının qəbulu Şıx sanatoriyasını dayaq-hərəkət sistemi xəstəliklərindən əziyyət çəkən insanlar üçün ideal məkana çevirir. Bununla bərabər, sanatoriyanın xidmətlərinə naftalan terapiyası, parafin terapiyası və təbii palçıq vasitəsilə müalicə də daxildir. Buranın müalicə bazası kliniki-diaqnostik laboratoriya, funksional diaqnostika, müalicəvi bədən tərbiyəsi, masaj və müxtəlif profilli tibbi kabinetlərdən ibarətdir.

Sanatoriyada sualtı duş-masaj, xüsusi şəkildə təchiz olunmuş hovuzlarda sualtı dartılma (hidrotraksiya) və velotrenajor vasitəsilə aşağı ətraf oynaqlarının işlənilməsi kimi balneoloji müalicə üsulları tətbiq olunur.

Şıx sanatoriyasına müalicəyə gələnlərin sayı günbəgün artmaqdadır. Rusiyadan, Qazaxıstandan, İsraildən və Avropa ölkələrindən gəlmiş pasientləri burada görmək adi haldır. Hazırda Şıx sanatoriyasının imkanları genişlənməkdədir. Belə ki, sanatoriyasının bir korpusunda ötən əsrin 90-ci illərinin əvvəllərində məskunlaşmış qaçqın və köçkünlər Qarabağda öz yurd-yuvalarına qayıdanadək rahat mənzillərdə yerləşdirilmişdir və sanatoriyanın bu hissəsində hazırda təmir-bərpa işləri sürətlə aparılır. Şıx mineral su yatağında mövcud olan suların istismar ehtiyatları 500 m3/sutkadır ki, bu da eyni vaxtda 500 nəfərədək insanın müalicəsi üçün kifayətdir.

**Bu müalicə ocağında şəfa tapmış bir insan kimi düşünürəm ki, biz dayaq-hərəkət aparatı və digər bir sıra xəstəlikləri olan vətəndaşlarımızın profilaktikası və müalicəsi məqsədi ilə bu dəyərli sağlamlıq müəssisəsinin imkanlarından daha səmərəli istifadə etsəydik xalqımızın sağlamlığına töhfə vermiş olardıq. Burada həm də ətraf və yaxın ölkələrdən də ehtiyacı olanları qəbul edər və büdcəmizə əlavə valyuta gətirilərdi.**

ədalət.-2021.- 6 noyabr.- S.8.